

Aydan Xəndan

## KÖNLÜM

Bu gün mənim könlüm məni dinləmir,
Deyir yorulubdur gileylərimdən
Sözümə ürəyim baxmaq istəmir.
Bezib son zamanlar tənələrimdən.

Gəl, deyir, mənimlə səfərə çıxaq,
Keçmişdə unudaq olub keçəni,
Yeni arzu duyaq, üfüqlər açaq
Ümidlə gözləyir səyahətimi.

Bəlkə də haqlıdır, inciyib məndən
Onunla çoxdandır yola getmirəm
Özümlə barışmaq vaxtıdır bəlkə,
Küsülü qalmağı mən heç sevmirəm.

Ürək dözümlüdür, səbri tükənmir
Nikbindir, nə qədər dərdi olsa da,
Sözünü salmaram yerə, amandır,
Barışıq ömrümüz qısa olsa da...

## KÖHNƏ DOSTA

Biri vardı, dost deyildi dayaqdı
Ömrümə min sevinc qatanım idi
Biri vardı gülüşü dərd qovardı
Uzaq belə olsa, yaxınım idi.

Hardadır, görəsən, hara yox olub?
Həyatın anlamsız qaçaqaçında
Bəlkə azıb yolun, bir başqa olub
Doğmalara bənzər yad arasında?

İllər dəyişdirir yəqin hər kəsi
Keçmişin dəyərin çoxları bilmir
Nəyəsə aldanıb, özgələşirik
Bircə xatirələr qalır, silinmir.

## ATAMA

Səni düşünürəm bu gün mən yenə
Xəyalım bir anlıq keçmişə dalır,
Səsin ən doğma bir musiqi kimi
Məni o günlərə alıb aparır.

Səni düşünürəm bu gün mən yenə
O əziz cizgilər birdən canlanır
Dəniz kimi dərin, nurlu baxışın
Mənim dərdlərimi yuyub aparır.

Səni düşünürəm bu gün mən yenə
Mənimlə bir yerdə deyib - gülürsən,
İçimdə gəzişən sonsuz şübhəni
Qovub varlığınla ümid verirsən.

Səni düşünürəm bu gün mən yenə
Uşaqlıq dövrümə qonaq oluram,
Damla-damla yığıb sənli günləri
Bu sənsiz ömrümü ovundururam.

## XƏYALLAR ALƏMİ

Xəyallar aləmi necə gözəldir,
Oraya sığınıb, qalmaq istərəm
Dəniz sahilində bağçalı bir ev
Ləpələr bəmbəyaz olsun istərəm.

Hər səhər günəşin nuruyla qalxıb
Suların içinə dalmaq istərəm
Axşamlar ulduzlar göydən boylansın
Onları əlimlə saymaq istərəm.

Qayğılardan uzaq, sevdiklərimlə
Baş-başa oturub gülmək istərəm,
Masa arxasında mənimlə yenə
İtirdiklərim də olsun istərəm.

Bir günlük də olsa, xəyal da olsa
Atamın səsini duymaq istərəm,
Sarılıb boynuna mən illər sonra
Uşaqlıq ömrümə dönmək istərəm.